**Prokurorların rolu haqqında Təlimat**

*07 sentyabr 1990-cı ildə Kubanın paytaxtı Havana şəhərində keçirilmiş Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Səkkizinci Konqresi tərəfindən qəbul edilmişdir.*

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsində dünya xalqlarının ədalətin təmin oluna biləcəyi şəraiti yaratmaq üçün qətiyyət göstərdiklərini və irqi, cinsi, dil və ya dini fərqlər zəminində ayrı-seçkiliyə yol verilmədən insan hüquqlarına və əsas azadlıqlara hörmətin təşviqində və aşılanmasında beynəlxalq əməkdaşlığa nail olmanı öz məqsədlərindən biri kimi bəyan etdiklərini nəzərə alaraq,

Ümumdünya İnsan Hüquqları Bəyannaməsində qanun qarşısında bərabərlik, təqsirsizlik prezumpsiyası, müstəqil və qərəzsiz məhkəmə tərəfindən ədalətli və açıq məhkəmə baxışı hüququ kimi prinsiplərin təsbit olunduğunu nəzərə alaraq,

Bu prinsiplər haqqında yaranmış təssəvür və faktiki vəziyyət arasında hələ də uyğunsuzluğun mövcüd olduğunu nəzərə alaraq,

Hər bir ölkədə ədalət mühakiməsinin təşkili və həyata keçirilməsi bu prinsiplərə əsaslanmalı və onların tam şəkildə həyata keçirilməsi üçün səylərin göstərilməli olduğunu nəzərə alaraq,

Prokurorların ədalət mühakiməsinin həyata keçirilməsində önəmli rol oynadıqlarını və onların mühüm vəzifələrinin yerinə yetirilməsi ilə bağlı normaların yuxarıda qeyd olunan prinsiplərə hörmət və riayət olunmasını təşviq etməli olduğunu, bununla da cinayət mühakiməsinin ədalətli və qərəzsiz şəkildə həyata keçirilməsinə və vətəndaşların cinayətlərdən səmərəli müdafiəsinə şərait yaratmalı olduğunu nəzərə alaraq,

Təkmilləşdirilmiş işə qəbul metodları, hüquqi və peşə təlimi vasitəsilə və cinayətkarlığa, xüsusən də onun yeni forma və ölçülərinə qarşı mübarizədə öz rollarını layiqincə yerinə yetirmək üçün bütün zəruri vasitələrlə təmin etməklə prokurorların öz funksiyalarını yerinə yetirmək üçün tələb olunan peşəkar keyfiyyətlərə malik olmalarını təmin etməyin vacib olduğunu nəzərə alaraq,

Baş Assambleyanın 1979-cu il 17 dekabr tarixli 34/169 saylı qətnaməsi ilə Cinayətkarlığın Qarşısının Alınması və Cinayətkarlarla Rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Beşinci Konqresinin tövsiyəsi əsasında Hüquq-mühafizə Orqanları Əməkdaşlarının Davranış Kodeksini qəbul etdiyini nəzərə alaraq,

Cinayətkarlığın Qarşısının Alınması və Cinayətkarlarla Rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Altıncı Konqresinin 16 saylı qətnaməsində Cinayətkarlığın Qarşısının Alınması və Mübarizə Komitəsini hakimlərin müstəqilliyi, hakimlərin və prokurorların seçilməsi, peşə hazırlığı və statusu ilə bağlı təlimatların hazırlanmasının prioritet vəzifələr sırasına daxil etməyə çağırdığını nəzərə alaraq,

Cinayətkarlığın qarşısının alınması və cinayətkarlarla rəftar üzrə Birləşmiş Millətlər Təşkilatının Yeddinci Konqresinin Məhkəmə hakimiyyətinin müstəqilliyinin Əsas prinsiplərini qəbul etdiyini, daha sonra müvafiq prinsiplərin Baş Assambleya tərəfindən 1985-ci il 29 noyabr tarixli 40/32 saylı və 1985-ci il 13 dekabr tarixli 40/146 saylı qətnamələrində təsdiq edildiyini nəzərə alaraq,

Cinayət və Hakimiyyət Səlahiyyətlərindən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas Prinsiplərinə dair Bəyannamədə cinayət qurbanlarının ədalət mühakiməsinə və ədalətli rəftar, restitusiyaya, kompensasiya və yardıma çıxış imkanlarını artırmaq üçün beynəlxalq və milli səviyyələrdə müvafiq tədbirlərin görülməsinin tövsiyə olunduğunu nəzərə alaraq,

Yeddinci Konqresin 7 saylı qətnaməsində Komitənin prokurorların seçilməsi, peşə hazırlığı və statusu, o cümlədən onların nəzərdə tutulan vəzifələri və davranışları, cinayət mühakimə sisteminin qüsursuz fəaliyyət göstərməsinə və polis orqanları ilə əməkdaşlıqlarının genişləndirməsinə töhfələrini artırmağın yolları, habelə onların diskresion səlahiyyətlərinin əhatə dairəsi və cinayət prosesindəki rolu ilə bağlı təlimatların hazırlanmasının zəruriliyini nəzərdən keçirməyə və bu barədə Birləşmiş Millətlər Təşkilatının gələcək konqreslərinə hesabat verməyə çağrıldığını nəzərə alaraq,

Üzv dövlətlərə cinayət prosesində prokurorların fəaliyyətlərinin səmərəliliyini, qərəzsizliyini və ədalətliliyini təmin və təşviq etmək məsələlərində kömək etmək üçün tərtib edilmiş aşağıdakı Təlimata hökumətlər tərəfindən riayət edilməli və onların milli qanunvericilikləri və təcrübələri çərçivəsində nəzərə alınmalı və prokurorların, habelə hakimlərin, hüquqşünasların, icra və qanunvericilik orqanlarının üzvlərinin, eləcə də geniş ictimaiyyətin diqqətinə çatdırılmalıdır. Hazırkı Təlimat əsasən dövlət ittihamçıları (prokurorlar) üçün tərtib edilmişdir, lakin onlar müvafiq olaraq ad hok əsaslarla təyin edilmiş prokurorlara da eyni dərəcədə şamil edilir.

## Peşə hazırlığı, seçim və təlim

1. Prokuror vəzifəsinə seçilmiş şəxslər yüksək əxlaqi keyfiyyətlərə və bacarıqlara, müvafiq hazırlığa və ixtisasa malik olmalıdırlar.

2. Dövlətlər aşağıdakıları təmin edirlər:

a. Prokurorların seçilməsi meyarları, prokuror vəzifəsinə namizədin müvafiq ölkənin vətəndaşı olması tələbini ayrı-seçkilik hesab etməmək şərti ilə, irq, dərinin rəngi, cins, dil, din, siyasi və ya digər əqidəyə, milli, sosial və ya etnik mənşəyə, əmlak vəziyyətinə, doğumuna, iqtisadi və ya digər statusuna görə hər hansı ayrı-seçkiliyi istisna edən qərəzlilik və yanlış fikrə əsaslanan təyinatlara qarşı tədbirləri əhatə etsin;

b. Prokurorlar müvafiq təhsilə və peşə hazırlığına malik və öz vəzifələrinin idealları və etik məsuliyyəti, şübhəli və zərərçəkmiş şəxslərin hüquqlarının konstitusiya və qanunla

müəyyən edilmiş təminatları, milli və beynəlxalq hüquqla tanınan insan haqları və əsas azadlıqlar barədə məlumatlı olsunlar.

**Status və xidmət şəraiti**

3. Prokurorlar ədalətin qorunub saxlanılmasında birbaşa iştirakçı kimi öz peşə, şərəf və ləyaqətlərini qorumalıdırlar.

4. Hökümətlər prokurorların hədə-qorxu, maneə, təqib, qanunsuz müdaxilə və ya əsassız olaraq mülki, cinayət və ya digər məsuliyyətə cəlb olunmadan öz peşə funksiyalarını yerinə yetirə bilmələrini təmin etməlidir.

5. Prokurorlar öz vəzifə səlahiyyətlərini icra etmələri nəticəsində onların şəxsi təhlükəsizliyinə təhlükə yarandıqda onların özləri və ailə üzvləri hakimiyyət orqanları tərəfindən fiziki müdafiə olunmalıdır.

6. Prokurorların əlverişli xidmət şəraiti, müvafiq əmək haqqı və lazım olduqda onların səlahiyyət müddəti, pensiya və pensiya yaşı qanunla və ya dərc edilmiş norma və ya qaydalarla müəyyən edilir.

7. Belə bir sistemin mövcud olduğu yerdə prokurorların vəzifədə irəli çəkilməsi obyektiv amillərə, xüsusən də peşə hazırlığı, bacarıq, dürüstlük və təcrübəyə əsaslanır, ədalətli və qərəzsiz prosedurlara uyğun olaraq həyata keçirilir.

**Söz və birləşmək azadlığı**

8. Prokurorlar digər vətəndaşlar kimi söz, vicdan, birləşmək və toplaşmaq azadlıqlarından istifadə edirlər. Xüsusilə, onlar qanuna, ədalət mühakiməsinin həyata keçirilməsinə və insan hüquqlarının təşviqi və müdafiəsinə həsr olunan ictimai müzakirələrdə iştirak etmək, yerli, milli və ya beynəlxalq təşkilatlara qoşulmaq və ya belə təşkilatlar yaratmaq, qanuni fəaliyyət və ya qanuni təşkilata üzvlük səbəbindən əlverişsiz vəziyyətə məruz qalmadan peşə fəaliyyətləri məhdudlaşdırılmadan onların iclaslarında iştirak etmək hüququna malikdirlər. Bu hüquqlardan istifadə edərkən prokurorlar həmişə qanuna və qəbul olunmuş peşə standartlarına və etikasına uyğun davranmalıdır.

9. Prokurorlar öz maraqlarını təmsil etmək, peşə hazırlıqlarını təşviq etmək və statuslarını qorumaq üçün peşə birlikləri və ya digər təşkilatlar yaratmaqda və onlara üzv olmaqda sərbəstdirlər.

**Cinayət prosesində rolu**

10. Prokurorların vəzifələri məhkəmə funksiyalardan ciddi şəkildə ayrılır.

11. Prokurorlar cinayət prosesində, o cümlədən cinayət prosesinin başlanmasında və qanunla icazə verildiyi halda və ya yerli təcrübəyə uyğun olaraq, cinayətlərin araşdırılmasında, həmin araşdırmaların qanuniliyinə nəzarətdə, məhkəmə qərarlarının

icrasına nəzarətdə və ictimai marağın nümayəndələri qismində digər funksiyaları yerinə yetirməkdə fəal rol oynayırlar.

12. Prokurorlar, qanuna uyğun olaraq öz vəzifələrini ədalətli, ardıcıl və operativ şəkildə yerinə yetirir, insan ləyaqətinə hörmət və ehtiram göstərir, insan haqlarını müdafiə edir, bununla da cinayət mühakimə sisteminin lazımi qaydada aparılmasına və qüsursuz fəaliyyətinin təmin edilməsinə töhfə verirlər.

13. Prokurorlar öz vəzifələrini yerinə yetirərkən:

a. Öz funksiyalarını qərəzsiz yerinə yetirməli və hər cür siyasi, sosial, dini, irqi, mədəni, cinsi və ya hər hansı digər ayrı-seçkiliyə yol verməməlidirlər;
b. İctimai maraqları qorumalı, obyektiv hərəkət etməli, şübhəli bilinən və zərərçəkmiş şəxslərin mövqelərini lazımi qaydada nəzərə almalı, şübhəli bilinən şəxslərin xeyrinə və ya zərərinə olmasından asılı olmayaraq, bütün müvafiq hallara diqqət yetirməlidirlər;
c. Vəzifənin icrası və ya ədalət mühakiməsinin tələbləri başqa cür tələb etmədiyi halda, öz səlahiyyətlərində olan məsələləri məxfi saxlamalıdırlar;
d. Zərərçəkmişlərin şəxsi maraqlarına toxunduqda onların fikirlərini və narahatlıqlarını nəzərə alıb, Cinayət və Hakimiyyətdən Sui-istifadə Qurbanları üçün Ədalət Mühakiməsinin Əsas Prinsipləri haqqında Bəyannaməyə uyğun olaraq zərəçəkmişlərin öz hüquqları barədə məlumatlandırılmasını təmin etməlidirlər.

14. Qərəzsiz şəkildə aparılan araşdırma nəticəsində ittihamın əsassız olduğunu müəyyən etdikdə prokurorlar tərəfindən cinayət işi açılmamalı və ya davam etdirilməməli, yaxud icraatı dayandırmaq üçün hər hansı bir səy göstərilməməlidir.

15. Prokurorlar dövlət məmurları tərəfindən törədilən cinayətlərin, xüsusilə korrupsiya, vəzifə səlahiyyətlərindən sui-istifadə, insan haqlarının ciddi şəkildə pozulması və beynəlxalq hüquqla tanınan digər cinayətlərin təqibinə, qanunla icazə verildiyi və ya yerli təcrübəyə uyğun olduğu halda həmin cinayətlərin istintaqına lazımi diqqət yetirməlidirlər.

16. Şübhəli bilinən şəxslərə qarşı onların insan hüquqlarının kobud şəkildə pozulması hesab edilən, xüsusilə də işgəncə və ya qəddar, qeyri-insani və ya ləyaqəti alçaldan rəftar, cəza və ya insan hüquqlarından digər sui-istifadə halları ilə müşayiət olunan qanunsuz yollarla əldə edildiyi bəlli olan, yaxud buna inanmaq üçün ciddi əsasların mövcud olduğu sübutlar prokurorlara təqdim edildikdə, onlar bu cür sübutları belə üsullardan istifadə etmiş şəxslərdən başqa kiməsə qarşı istifadə etməkdən imtina edir və ya bu barədə Məhkəməyə məlumat verir və bu üsullardan istifadədə təqsiri olan şəxslərin məsuliyyətə cəlb edilmələrini təmin etmək üçün bütün lazımi tədbirləri görürlər.

## Diskresion funksiyalar

17. Prokurorlara diskresion funksiyaların verildiyi ölkələrdə, qanun və ya dərc edilmiş normalar və ya qaydalar təqib prosesində, o cümlədən cinayət təqibini başlayarkən və ya ondan imtina edərkən qərarların qəbul edilməsində yanaşmanın uyğunluğunu və ədalətliliyi artırmaq üçün əsas təlimatları müəyyən etməlidirlər.

**Cinayət təqibinin alternativləri**

18. Milli qanunvericiliyə uyğun olaraq, prokurorlar, şübhəlinin (şübhəlilərin) və qurbanın (qurbanların) hüquqlarına tam hörmətlə yanaşmaqla, cinayət təqibindən imtina etmə, icraata şərti və ya qeyd-şərtsiz xitam vermə və ya cinayət işlərini formal ədalət mühakiməsi sistemindən yayındırma hallarına lazımi diqqət yetirməlidirlər. Bu məqsədlə, Dövlətlər, tək məhkəmənin həddindən artıq yükünü yüngülləşdirmək üçün deyil, həm də məhkəməyə qədər həbs qətimkan tədbirinin, irəli sürülən ittihamın və məhkumluğun stiqmatizasiyasından, habelə azadlıqdan məhrum olunmanın mümkün mənfi təsirlərindən yayınmaq üçün müvafiq proqramların qəbul edilməsi imkanlarını tam araşdırmalıdırlar.

19. Prokurorlara yetkinlik yaşına çatmayan şəxsə qarşı araşdırmanın başlanıb-başlanmaması barədə qərar qəbul edilməsi ilə bağlı diskresion funksiyaların həvalə edildiyi ölkələrdə cinayətin xarakterinə və ağırlıq dərəcəsinə, cəmiyyətin mühafizəsinə və yetkinlik yaşına çatmayan şəxsin şəxsiyyətinə və keçmişinə xüsusi diqqət yetirilməlidir. Bu qərarı qəbul edərkən, prokurorlar, yetkinlik yaşına çatmayanlara dair ədalət mühakiməsinin müvafiq qanun və prosedurlarına uyğun olaraq, cinayət təqibinə alternativ variantları xüsusilə nəzərə almalıdırlar. Prokurorlar yetkinlik yaşına çatmayanlara qarşı yalnız ciddi zəruri həddə cinayət təqibi tədbirlərinin görülməsi üçün bütün mümkün səyləri göstərməlidirlər.

**Digər hökümət orqanları və ya qurumları ilə əlaqələr**

20. Prokurorlar cinayət təqibinin ədalətliliyini və səmərəliliyini təmin etmək üçün polis orqanları, məhkəmələr, hüquqşünaslar, müdafiəçilər və digər hökümət orqanları və ya qurumları ilə əməkdaşlıq etməyə səy göstərirlər.

**İntizam tədbirləri**

21. Prokurorlara qarşı intizam tədbirləri qanuna və ya normativ aktlara əsaslanır. Prokurorlara qarşı onların peşə standartlarının hüdudlarından açıq şəkildə kənara çıxdıqlarını iddia edən şikayətlərə müvafiq prosedurlar əsasında tez və ədalətli şəkildə baxılır. Prokurorların işin ədalətli araşdırılması hüququ vardır. Qərarı müstəqil tərəf nəzərdən keçirir.

22. Prokurorlara qarşı intizam tədbirləri obyektiv qiymətləndirməyə və qərara zəmanət verir. Onlar qanuna, peşə davranışı kodeksinə və digər müəyyən edilmiş standartlara və etik normalara uyğun olaraq və hazırkı Təlimat nəzərə alınmaqla müəyyən edilir.

**Təlimata riayət edilmə**

23. Prokurorlar bu Təlimata riayət etməlidirlər. Onlar, həmçinin, öz imkanları daxilində, bu Təlimatın pozulmasının qarşısını almaq və onun pozulmasına qarşı fəal şəkildə mübarizə aparmaq üçün lazımi tədbirlər görməlidirlər.

24. Bu Təlimatın pozulmasının baş verdiyini və ya baş verəcəyini güman etmək üçün əsası olan prokurorlar bu barədə yuxarı orqanlara, lazım gəldikdə isə nəzarət və ya onları aradan qaldırmaq səlahiyyətinə malik olan digər müvafiq orqanlara və ya qurumlara məlumat verməlidirlər.